# Təlimat

Hörmətli abituriyent, təsviri sənət üzrə qabiliyyət imtahanlarının nəticəsi ilə bağlı apellyasiya komissiyasına elektron ərizə ilə müraciət edərkən təlimatda göstərilənləri nəzərə almağınızı xahiş edirik. Apellyasiya komissiyasına müraciət etməmişdən əvvəl siz imtahan nəticələriniz, qabiliyyət imtahanlarında iştirak etmək üçün qeydiyyatdan keçdiyiniz elektron səhifədə yerləşdirilmiş “tapşırıq çəkilmiş rəsm vərəqi”nin fotosurəti, yerinə yetirilən tapşırıq üzrə qiymətləndirmə meyarları və qiymətləndirmə şkalası ilə tanış olmalısınız.

Ötən imtahanların təcrübəsi göstərir ki, apellyasiya üçün ərizə yazanların əhəmiyyətli bir hissəsi qiymətin yenidən araşdırılması ilə bağlı komissiyaya müraciət etsələr də, ünsiyyət zamanı qiymətlərindən razı olduqlarını bildirir, komissiyadan bu və ya digər səbəblə əlaqədar onlara güzəşt etməyi xahiş edirlər. Abituriyentlərin nəzərinə çatdırırıq ki, bu tip müraciətlərə baxılmır. Elektron ərizədə yalnız müvafiq QİK-lə bağlı apellyasiya müraciətinin məzmunu qeyd olunmalıdır, əks halda ərizə qəbul edilmir, həmin müraciət araşdırılmır və onun üçün apellyasiya təşkil olunmur. Apellyasiya müzakirəsində abituriyentin iştirakı mütləqdir.

Sizin müraciətinizə telefon əlaqəsi vasitəsilə baxılacaq. Bir abituriyentin müraciəti üzrə 10 dəqiqə müzakirə aparılması nəzərdə tutulmuşdur. Ayrılan vaxt bitdikdə, kənar şəxs müzakirəyə qoşulduqda və ya etik davranış qaydaları pozulduqda müzakirə prosesi dayandırılacaq. Elektron ərizəsində göstərilən telefon nömrəsinin aktiv olmasına diqqət yetirin, çünki əlaqə yaratmaq mümkün olmadıqda, ikinci dəfə apelyasiya komissiyasının yaradılması nəzərdə tutulmamışdır. Qeyd edək ki, apellyasiya prosesinin qaydalara uyğun təşkilinə dair daxili nəzarəti həyata keçirmək məqsədilə abituriyentlərin komissiya üzvləri ilə telefon əlaqəsinin səs yazısı aparılır.

**QİK 1601**
**Rəsm imtahanı üzrə**
**(**məişət əşyalarından ibarət mürəkkəb natürmort**)**

| № | *Meyarlar* | *Maksimal bal* |
|---|---|---|
| **1** | **natürmortun verilmiş formata uyğun kağız üzərində yerləşdirilməsi** | **2** |
| a | natürmortun ölçülərinin kağızın formatına münasibətdə düzgün tapılmaması və kağız üzərində düzgün yerləşdirilməməsi | 0 |
| b | - natürmortun ölçülərinin kağızın formatına münasibətdə düzgün tapılması və kağız üzərində nisbətən düzgün yerləşdirilməsi<br>- natürmortun ölçülərinin kağızın formatına münasibətdə nisbətən düzgün tapılması və kağız üzərində düzgün yerləşdirilməsi | 1 |
| c | natürmortun ölçülərinin kağızın formatına münasibətdə düzgün tapılması və kağız üzərində düzgün yerləşdirilməsi | 2 |
| **2** | **natürmortun konstruktiv həlli** | **3** |
| a | natürmortun konstruktiv həllin olmaması və nisbətlərin gözlənilməməsi | 0 |
| b | natürmortun konstruktiv həllinin və nisbətlərin qismən gözlənilməsi, həcmin düzgün tapılması | 1 |
| c | natürmortun konstruktiv həllinin və nisbətlərin, əsasən, gözlənilməsi, hissə və detalların nisbətlərinin, əsasən, verilmiş tapşırığa uyğun işlənilməsi | 2 |
| d | natürmortun konstruktiv həllinin və nisbətlərin düzgün tapılması və ifadə edilməsi | 3 |
| **3** | **natürmortun işıq-kölgə və plastik həlli** | **3** |
| a | rəsmdə işıq-kölgə həllinin verilməməsi, həcmin düzgün tapılmaması | 0 |
| b | natürmortun işıq-kölgə həllinin nisbətən yerinə yetirilməsi, həcmin qismən tapılması | 1 |
| c | natürmortun işıq-kölgə həllinin formanı ifadə etməsi, həcm və plastikanın qismən yerinə yetirilməsi | 2 |
| d | rəsmdə işıq-kölgə və plastik həllin dəqiq verilməsi, işıq-kölgə və ton keçidlərinin formalara uyğunluğu | 3 |
| **4** | **natürmortun işlənilməsinin tamamlanması** | **2** |
| a | natürmortun tamamlanmaması, əşyaların ölçü nisbətinin və plastikasının olmaması | 0 |
| b | natürmortun qismən tamamlanması, cizgilərin qənaətbəxş şəkildə yekunlaşdırılması, ton və plastikanın qismən uyğunluğu | 1 |
| c | natürmortun düzgün tamamlanması, ton və plastikanın təsvir olunan natürmortla tam uyğunluğu | 2 |